| Razılaşdırılıb: | Təsdiq edilmişdir: |
|---|---|
| Azərbaycan Respublikası<br>Maliyyə Nazirliyi<br>Dövlət Sığorta Nəzarəti<br>Xidmətinin rəisi | “AtaSığorta” ASC-nin<br>İdarə Heyətinin sədri |
| N.C. Xəlilov | M.F. Əliyev |
| ____________________________<br>İmza M.Y. | ____________________________<br>İmza M.Y. |
| /___/__________2015-ci il | /___/__________2015-ci il |

# FƏRDİ QƏZA SIĞORTASI QAYDALARI

**BAKI – 2015**

## MÜNDƏRİCAT


ANLAYIŞLAR ..... 3

BÖLMƏ 1. SIĞORTA MÜQAVİLƏSİNİN TƏRƏFLƏRİ ..... 3
**Maddə 1. Sığortaçı** ..... 3
**Maddə 2. Sığortalı** ..... 4
**Maddə 3. Sığorta olunan** ..... 4
**Maddə 4. Faydalanan şəxs** ..... 4

BÖLMƏ 2. SIĞORTANIN OBYEKTİ ..... 4
**Maddə 5. Sığortanın obyekti və sığorta sinfi** ..... 4

BÖLMƏ 3. SIĞORTA TƏMİNATI ..... 4
**Maddə 6. Sığorta riskləri. Sığorta hadisələri** ..... 4
**Maddə 7. Fərdi qəza və fərdi qəza nəticəsində yaranan tibbi xərclər ..... Error! Bookmark not defined.**
**Maddə 8. Sığorta təminatına daxil olmayan hallar (istisnalar)** ..... 4
**Maddə 9. Sığortanın ərazisi** ..... 5

BÖLMƏ 4. SIĞORTA MƏBLƏĞİ VƏ SIĞORTA HAQQI ..... 5
**Maddə 10. Sığorta məbləği** ..... 5
**Maddə 11. Sığorta haqqı** ..... 5
**Maddə 12. Sığorta haqqının ödənilməsi** ..... 6

BÖLMƏ 5. SIĞORTA MÜQAVİLƏSİ ..... 6
**Maddə 13. Sığorta müqaviləsinin bağlanması** ..... 6
**Maddə 14. Sığorta müqaviləsi bağlanan zaman sığortalı tərəfindən bildirilməli olan faktlar** ..... 6
**Maddə 15. Sığorta müddəti** ..... 6
**Maddə 16. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi** ..... 6
**Maddə 17. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə** ..... 7
**Maddə 18. Sığorta müqaviləsinə vaxtindan əvvəl xitam vermənin nəticələri** ..... 7
**Maddə 19. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklərin edilməsi** ..... 7

BÖLMƏ 6. TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ ..... 8
**Maddə 20. Sığortaçının hüquqları və vəzifələri** ..... 8
**Maddə 21. Sığortalının hüquqları və vəzifələri** ..... 8

BÖLMƏ 7. SIĞORTA ÖDƏNIŞI ..... 9
**Maddə 22. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər** ..... 9
**Maddə 23. Sığorta ödənişinin hesablanması, verilməsi qaydası və sığorta ödənişinin ödənilməsindən imtina** ..... 9
**Maddə 24. Fərdi qəzanın nəticələrinin təzahür müddəti** ..... 13
**Maddə 25. Ətraflardan və ya orqanlardan istifadə imkanlarının itirilməsi** ..... 13
**Maddə 26. Bir neçə xəsarət üzrə ödəniş** ..... 13
**Maddə 27. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödəniş** ..... 13

BÖLMƏ 8. DİGƏR MÜDDƏALAR ..... 13
**Maddə 28. Mübahisələrin həlli qaydası** ..... 13
**Maddə 29. Digər şərtlər** ..... 13

## ANLAYIŞLAR

Bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

**Sığortaçı -** «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu əsasında sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs.

**Sığortalı -** sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi.

**Sığorta olunan -** sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan şəxs.

**Faydalanan şəxs -** sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs.

**Sığorta müqaviləsi -** sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma.

**Sığorta şəhadətnaməsi -** sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd.

**Sığorta obyekti -** sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi.

**Sığorta haqqı -** risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği.

**Sığorta məbləği -** sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi.

**Sığorta riski və ya risk -** sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik.

**Sığorta hadisəsi -** qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal.

**Sığorta tələbi -** sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti.

**Sığorta ödənişi -** sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası.

**Sığorta tarifi -** sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi.

**Sığortanın müddəti -** sığorta risklərinin sığortalanmış hesab olunduğu müddət.

**Əhəmiyyətli hallar -** müqavilə bağlanarkən bildirilməli olan, sığortaçının müqavilədən imtina etmək və ya onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən və/və ya sığortalıya yazılı şəkildə aydın və birmənalı sorğu verilmiş hallar (faktlar) əhəmiyyətli sayılır.

**Sığortanın ərazisi -** sığorta predmetinin sığortalanmış hesab olunduğu müəyyən coğrafi ərazi hüdudları.

**Əmək qabiliyyətinin müvəqqəti itirilməsi** - vaxt keçdikcə tam bərpa oluna bilən, ümumi əmək qabiliyyətinin müvəqqəti olaraq itirilməsi.

**Əmək qabiliyyətinin daimi itirilməsi** (əlillik) - vaxt keçdikcə tam bərpa oluna bilməyən, ümumi əmək qabiliyyətinin tam və ya qismən itirilməsi.

**Fərdi qəza (bədbəxt hadisə)** - müəyyən zaman zərfində və yerdə zorakı, ani və kontrol altında olmayan xarici təsirin (partlayış; elektrik cərəyanının təsiri; ildırım vurması; cinayətkarların və ya heyvanların hücumu; sığorta olunanın üzərinə əşyaların düşməsi; sığorta olunanın yıxılması; nəfəs yollarına yad cismin düşməsi; zəhərli bitkilərlə və göbələklərlə, kimyəvi maddələrlə, dərmanlarla, zəhərli qazlarla kəskin zəhərlənmə; qida toksikoinfeksiyası; nəqliyyat vasitələrinin hərəkəti və ya qəzası; hərəkət edən mexanizmlərdən, silahdan və hər cür alətlərdən istifadə; kimyəvi maddələrin təsiri; heyvanların və ya həşəratların dişləməsi, qapması, sancması və s.) nəticəsində baş verən və bədən üzvlərinin və əzələ toxumalarının zədələnməsi və ya qeyri-iradi (özündən asılı olmayan) ölümü şəklində sığorta olunanın səhhətinə zərər vuran qeyri-adi, gözlənilməyən və nəzərə çarpan hadisə.

## BÖLMƏ 1. SIĞORTA MÜQAVİLƏSİNİN TƏRƏFLƏRİ

### Maddə 1. Sığortaçı

1.1. Bu Şərtlərə əsasən sığortaçı dedikdə «AtaSığorta» Açıq Səhmdar Cəmiyyəti başa düşülür.

**Maddə 2. Sığortalı**

2.1. Sığortalı qismində fəaliyyət qabiliyyətli fiziki şəxs və ya hüquqi şəxs çıxış edə bilər.

2.2. Eyni bir şəxs həm sığortalı, həm sığorta olunan, həm də sığortadan faydalanan ola bilər.

**Maddə 3. Sığorta olunan**

3.1. Aşağıdakı şəxslərlə sığorta müqaviləsi bağlanılmır:

3.1.1. I qrup əlillər;

3.1.2. sığorta müqaviləsi bağlanan zaman yaşı 18-dən az və ya 75-dən çox olan şəxslər. 75 yaşı tamam olmamış sığorta olunan şəxslərin sığortası 80 yaşına qədər təzələnə bilər. Sığortalının yaşı, cari gün/ay/il-dən sığortalının doğum tarixi (gün/ay/il) çıxılaraq hesablanır;

**Maddə 4. Faydalanan şəxs**

4.1. Faydalanan şəxs dedikdə sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs başa düşülür.

4.2. Faydalanan şəxs sığorta hadisəsi baş verənədək yalnız onun və sığortaçının razılığı ilə Sığortalı tərəfindən başqa şəxslə əvəz edilə bilər.

## BÖLMƏ 2. SIĞORTANIN OBYEKTİ

**Maddə 5. Sığortanın obyekti və sığorta sinfi**

5.1. Bu Qaydalara əsasən fərdi qəza nəticəsində sığorta olunanın ölümü və ya səhhətinə dəyən zərərlə bağlı Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan əmlak mənafeləri sığortanın obyekti hesab olunur.

5.2. Bu sığorta qaydaları əsasında təqdim edilən sığorta növü fərdi qəza sığortası sinifinə aiddir.

## BÖLMƏ 3. SIĞORTA TƏMİNATI

**Maddə 6. Sığorta riskləri. Sığorta hadisələri**

6.1. Bu Qaydalarla, fərdi qəza (bədbəxt hadisə) nəticəsində aşağıdakılara təminat verilə bilər:

6.1.1. Sığorta olunanın ölümü;

6.1.2. Sığorta olunanın ümumi əmək qabiliyyətini daimi itirməsi:

6.1.2.1. Tam əlillik ödənişi;

6.1.2.2. Qismən əlillik ödənişi

6.1.3. Sığorta olunanın ümumi əmək qabiliyyətinin müvəqqəti itirilməsi;

6.1.4. Fərdi qəza nəticəsində Sınıqlar;

6.1.5. Fərdi qəza nəticəsində yaranan tibbi xərclər

6.2. Sığorta şəhadətnaməsində başqa cür nəzərdə tutulmamışdırsa Sığortaçı yalnız 6.1.1-ci və 6.1.2.1-ci bəndlərdə göstərilmiş risklərə sığorta təminatı verir.

**Maddə 7. Fərdi qəza və Fərdi qəza nəticəsində yaranan tibbi xərclər**

7.1. Fərdi qəza dedikdə, sığorta təminatının qüvvədə olduğu müddət ərzində Sığorta olunanın iradəsindən asılı olmayan, onun həyatına və sağlamlığına zərər vuran qəfil, öncədən gözlənilməyən xarici faktorların (fiziki, kimyəvi, texniki və s.) təsadüfi təsiri, o cümlədən Sığorta olunanın sərnişin kimi hərəkət etdiyi yerüstü, su və hava nəqliyyatı vasitəsinin qəzaya uğraması nəzərdə tutulur.

7.2. Aşağıdakı hallar da fərdi qəza hadisəsi hesab edilir:

7.3.1. Qəflətən və gözlənilmədən otağa dolan qazların tənəffüsündən baş verən ölüm hadisəsi;

7.3.2. Yanıqlardan və ani bir hərəkət nəticəsində əzələ və sinir sisteminin zədələnməsi, burxulması və qopması;

7.3.3. İlan və ya həşəratların sancması nəticəsində zəhərlənmələr və ölüm;

7.3.4. Heyvanların dişləməsi nəticəsində əmələ gələn bədən xəsarəti və quduzlaşmış heyvanın dişləməsi nəticəsində quduzlaşmaya görə baş verən ölüm.

7.3. Fərdi qəza nəticəsində yaranan tibbi xərclərə aşağıdakılar daxildir:

7.4.1. əməliyyatların, diaqnostik müayinələrin həyata keçirilməsi xərcləri, o cümlədən həkim tərəfindən təyin edilmiş tibbi preparatlara, sarğı materiallarına və fiksasiya vasitələrinə (gips, bandaj) çəkilmiş xərclər də daxil olmaqla stasionarda qalma və müalicə olunma (standart tipli palatada) xərcləri;

7.4.2. həkim xidmətləri, diaqnostik müayinələr, həkim tərəfindən təyin edilmiş tibbi preparatlara, sarğı materiallarına və fiksasiya vasitələrinə (gips, bandaj) çəkilmiş xərclər də olmaqla ambulator müalicə xərcləri.

**Maddə 8. Sığorta təminatına daxil olmayan hallar (istisnalar)**

8.1. Aşağıda qeyd edilənlərlə əlaqədar baş verən hadisələr sığorta təminatına daxil deyil:

8.1.1. sığorta olunanın spirtli içkilərdən, narkotik vasitələrdən və ya bilərəkdən zəhərli və toksiki maddələrdən istifadəsi və bunun nəticəsində sərxoş vəziyyətdə olması;
8.1.2. sığortalının təhlükədə olan insan və malları xilas etmək halları istisna olmaqla, özünü bilərəkdən təhlükəyə atması;
8.1.3. sığorta olunanın nəqliyyat vasitəsini spirtli içkilərdən, narkotik vasitələr və ya zəhərli maddələrdən sərxoş vəziyyətdə olan şəxsə verməsi;
8.1.4. sığortalı intihar və ya intihara cəhd etməsi nəticəsində vəfat edərsə və ya şikəst qalarsa, sığortalının həmin andakı əqli vəziyyətindən asılı olmayaraq sığortaçı tərəfindən heç bir ödəniş verilmir;
8.1.5. sığorta olunanın və (və ya) faydalanan şəxsin qərəzli hərəkətləri;
8.1.6. sığortalının (sığorta olunanın) cinayət törətməsi, habelə cinayətə cəhd və ya hazırlıq zamanı ölməsi və ya bədən xəsarəti alması;

8.2. Əgər sığorta şəhadətnaməsində başqa cür nəzərdə tutulmamışdırsa, sığortaçı aşağıda göstərilən hallar nəticəsində baş verən hadisələrə görə də sığorta təminatı vermir:
8.2.1. nüvə partlayışının təsiri, radiasiya və radioaktiv şüalanma;
8.2.2. sığorta olunanın xidməti vəzifəsinin icrası ilə bağlı olmayan hərbi əməliyyatlar, manevrlər və ya digər hərbi tədbirlər;
8.2.3. müharibə və ya müharibə əməliyyatları, manevr və digər hərbi tədbirlər, vətəndaş müharibəsi, hər cür xalq iğtişaşları və ya tətillər;
8.2.4. idarə edilməsi üçün xüsusi icazə tələb olunan nəqliyyat vasitəsinin belə icazə olmadan sığorta olunan tərəfindən idarə edilməsi;
8.2.5. sığorta hadisəsi nəticəsində baş verməyən suda boğulmalar;
8.2.6. sığorta olunanın nəqliyyat vasitəsini sürücülük vəsiqəsi olmayan şəxsə verməsi;
8.2.7. donma, günəş vurması;
8.2.8. sığorta təminatına daxil olan qəzanın tələb etmədiyi təqdirdə, aparılan cərrahiyyə əməliyyatları və müxtəlif növ şüaların qəbulu;
8.2.9. protezləşdirmə, həmçinin endoprotezləşdirmə, dişlərin protezləşdirilməsi və ona hazırlıq, plombların ştiftli qoyulması, kosmetik stomatologiya, dişlərin ftorlakla örtülməsi; kosmetik qüsurlar (ilkin vəziyyətin bərpası yolu ilə zərərin əvəzinin ödənilməsi halları istisna olmaqla); eynəklər, kontakt linzaları, eşitmə cihazları, bütün növ protezlər, ortopedik və digər yardımçı vasitələr;
8.2.10. ov, alpinizm, planerizm, speleologiya (mağaraları öyrənməklə əlaqədar elm), paraşütlə tullanma, sualtı idman növləri, qış idman növləri, reqbi, polo, döyüş sənətləri, motosiklet və at yarışları, su xizək yarışları; hər hansı idman yarışlarında və ya belə yarışlara məşqlər, həmçinin, həyat və sağlamlıq üçün yüksək təhlükə yaradan hər hansı digər fəaliyyətlərdə iştirak;
8.2.11. motosiklet və motorlu velosiped sürmək və onlara minmək;
8.2.12. açıq dənizdə balıqçılıq, balıq ovu, qaban və digər vəhşi heyvanların ovlanması və dağ yüksəkliklərində ovçuluq;
8.2.13. bütün növ idman müsabiqələri, sürət yarışları;
8.2.14. sərnişin kimi uçmaq halı istisna olmaqla, havada bütün növ uçuşlar və həmçinin təlim uçuşları;
8.2.15. təbii fəlakətlər, o cümlədən zəlzələ, sel, vulkan püskürməsi, sunami, torpaq sürüşməsi və s;
8.2.16. Azərbaycan Respublikası sərhədlərindən kənarda baş verən qəza hadisələri;

**Maddə 9. Sığortanın ərazisi**

9.1. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta təminatı Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

## BÖLMƏ 4. SIĞORTA MƏBLƏĞİ VƏ SIĞORTA HAQQI

**Maddə 10. Sığorta məbləği**

10.1. Sığorta məbləği sığorta müqaviləsi ilə müəyyənləşdirilir.

**Maddə 11. Sığorta haqqı**

11.1. Sığorta haqqı sığorta müqaviləsində göstərilən müddətdə və qaydada sığortalı tərəfindən Sığortaçıya ödənilən haqdır.
11.2. Sığorta haqqının məbləği, sığorta məbləği, sığorta təminatı verilən risklər, sığorta müddəti və sığorta tariflərindən asılı olaraq hesablanır. Sığortalının təqdim etdiyi məlumatlar əsasında sığortaçı riskin dərəcəsini və sığorta tarifini müəyyən edir.

**Maddə 12. Sığorta haqqının ödənilməsi**

12.1. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta şəhadətnaməsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.

12.2. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 12.3-cü maddəsinin tələbini nəzərə alaraq yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

12.3. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

## BÖLMƏ 5. SIĞORTA MÜQAVİLƏSİ

**Maddə 13. Sığorta müqaviləsinin bağlanması**

13.1. Sığorta müqaviləsi sığortalının sığortalanmaq barədə ərizəsi (müraciəti) əsasında yazılı surətdə bağlanılır.

13.2. Sığorta müqaviləsinin bağlanması faktı tərəflərin bu sığorta şərtləri əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması və ya bu sığorta şərtləri ilə sığortalının razı olmasını təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə təsdiq edilir.

13.3. Sığorta yalnız sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən və sığortaçıya bildirilən sığorta hadisələrini əhatə edir.

**Maddə 14. Sığorta müqaviləsi bağlanan zaman sığortalı tərəfindən bildirilməli olan faktlar**

14.1. Sığorta müqaviləsi bağlanarkən sığortalı riskin baş vermə ehtimalının müəyyən edilməsi və mümkün itkilərin həcminin hesablanması üçün əhəmiyyət daşıyan və xəbərdar olduğu bütün faktları və halları bildirməyə borcludur.

14.2. Sığortalının məlumatının yalan, yanlış və yaxud yarımçıq olması hallarında sığortaçı sığorta müqaviləsini imzalamaqdan imtina edir və ya bunu öyrəndikdə və ya bu haqda sığortalı tərəfindən ona məlumat verildikdə:

14.2.1. sığortalı bunu qəsdən etmişdirsə, sığortaçı vəziyyəti öyrəndiyi anda müqaviləni bir tərəfli qaydada xitam edə və bu haqda sığortalının sığorta müqaviləsində göstərilmiş sonuncu ünvanına yazılı surətdə məktub vasitəsilə məlumat göndərə bilər. Sığortalının öz öhdəliyini bu bənddə göstərilən qaydada pozması ilə sığorta müqaviləsi xitam edilənədək keçən müddət ərzində baş vermiş sığorta hadisəsi arasında hər hansı əlaqə olarsa, sığortaçı, sığorta ödənişini verməkdən imtina edə bilər;

14.2.2. sığortalı bu hərəkəti bilmədən etmişdirsə, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 ay ərzində müqaviləni xitam edə və ya əlavə sığorta haqqı almaqla müqaviləni davam etdirə bilər. Sığortalı əlavə sığorta haqqını 5 (beş) gün ərzində sığortaçıya ödəməzsə sığorta müqaviləsi xitam edilmiş hesab olunur.

**Maddə 15. Sığorta müddəti**

15.1. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa sığorta təminatı sığorta müqaviləsində (şəhadətnaməsində) göstərilmiş başlanma və sona çatma tarixlərində yerli vaxtla saat iyirmi dörddə başlayır və saat iyirmi dörddə sona çatır.

**Maddə 16. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi**

16.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

16.1.1. Sığortaçının və ya sığortalının tələbi əsasında;

16.1.2. Sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda;

16.1.3. Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

16.1.4. Sığortaçı sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;

16.1.5. Sığortalı sığorta haqqını qanunvericilikdə və sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

16.1.6. Sığorta marağı artıq mövcud olmadıqda.

16.1.7. Qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

16.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

**Maddə 17. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə**

17.1. Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda, bu Qaydaların 17.2-ci bəndi nəzərə alınmaqla, müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

17.2. Sığorta müqaviləsinə bu Qaydaların 16.1.1-cu yarımbəndinə uyğun olaraq, sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

**Maddə 18. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri**

18.1.Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi halında sığorta haqlarının müvafiq hissəsinin qaytarılması ilə bağlı münasibətlər aşağıdakı qaydada həll edilir.

18.1.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

18.1.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

18.1.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya (və ya faydalanan şəxsə) ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

18.1.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 18.1.1.-ci və 18.1.2.-ci yarımbəndində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

18.1.5. Sığorta müqaviləsi bu Qaydaların 16.2-ci bəndində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Qaydaların 18.1.3.-cü və 18.1.4.-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

**Maddə 19. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklərin edilməsi**

19.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində ona tərəflərin razılığı ilə sığortalının vəziyyətini bu Qaydaların şərtlərinə nisbətən pisləşdirməyən əlavələr və dəyişikliklər edilə bilər. Bu tələbə uyğun olmayan əlavələr və dəyişikliklər etibarsızdır.

19.2. Sığortaçı sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə sığorta riskinin artmasına səbəb olan dəyişikliklər barədə məlumat aldıqda sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini, o cümlədən sığorta haqqının artırılmasını tələb edə bilər. Sığortalı bu tələblə razılaşmadıqda, sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsini tələb edə bilər

## BÖLMƏ 6. TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

**Maddə 20. Sığortaçının hüquqları və vəzifələri**

20.1. Sığortaçı aşağıdakıları öhdəsinə götürür:

20.1.1. sığortalını sığorta müqaviləsinin şərtləri ilə tanış etmək;

20.1.2. sığortalı tərəfindən sığorta hadisəsinin baş vermə ehtimalının və mümkün itkilərin azal(dıl)masına yönəldilmiş tədbirlər həyata keçirildikdə, sığortalının məlumatı əsasında sığorta müqaviləsində bu vəziyyətlə əlaqədar dəyişikliklər etmək;

20.1.3. sığorta müqaviləsinin şərtlərinə riayət etmək;

20.1.4. sığorta hadisəsinin baş verməsi barədə məlumat aldıqda, onu dərhal qeydiyyata almaq və bu hadisənin baş verməsi faktını təsdiq edən sənədləri almaq üçün müvafiq səlahiyyətli orqanlara, idarə və ya təşkilatlara sorğu vermək;

20.1.5. sığorta hadisəsi baş verdikdə, sığorta müqaviləsi və ya bu qaydalarla müəyyən edilmiş müddətdə sığorta ödənişini vermək. Sığortaçı bu öhdəliyə əməl etmədikdə, hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0.1 faizi həcmində dəbbə pulu ödəyir;

20.1.6. peşəkar fəaliyyəti nəticəsində əldə etdiyi sığorta sirri hesab edilən məlumatları qorumaq, həmin məlumatları qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa digər şəxslərə yaymamaq;

20.1.7. sığorta qanunvericiliyi və sığorta müqaviləsi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

20.2. Sığortaçı aşağıdakı hüquqlara malikdir:

20.2.1. sığorta müqaviləsi bağlanan zaman sığorta riskinin qiymətləndirilməsi üçün zəruri olan müvafiq (ərizə-anket forması və s.) məlumatları və sənədləri sığortalıdan tələb etmək;

20.2.2. sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində:

a) istənilən vaxt sığortalının təqdim etdiyi məlumatların düzgünlüyünü, habelə sığorta müqaviləsinin tələblərini və şərtlərini yerinə yetirməsini yoxlamaq;

b) sığorta müqaviləsi bağlanan zaman sığortalı tərəfindən bildirilən və riskin artmasına təsir edən (sığorta hadisəsinin baş vermə ehtimalını artıran) əhəmiyyətli hallarda dəyişiklik baş verdikdə və ya bu haqda məlumat aldıqda, 1 ay ərzində sığorta müqaviləsinin şərtlərində dəyişiklik etmək və (və ya) artan riskə mütənasib olaraq əlavə sığorta haqqının ödənilməsini tələb etmək. Əgər sığortalı sığorta müqaviləsinin şərtlərində dəyişiklik edilməsinə və (və ya) əlavə sığorta haqqının ödənilməsinə etiraz edərsə, sığortaçı dəyişikliyin baş verdiyi andan sığorta müqaviləsini ləğv etmək hüququna malikdir;

c) sığortalının bu Qaydaların 21.1.1 bəndində göstərilmiş hallarda sığortaçıya bilərəkdən (qəsdən) yalan məlumat verməsi faktı müəyyən edilərsə, sığorta müqaviləsinin etibarsız hesab olunmasını tələb etmək;

20.2.3. sığorta hadisəsi hesab edilə bilən hadisənin baş verməsi barədə məlumat aldıqdan sonra hadisənin baş vermə səbəblərini araşdırmaq və ya bu məqsədlə ekspertlər dəvət etmək;

20.2.4. sığortalıdan və sorğu əsasında müvafiq səlahiyyətli orqanlardan sığorta hadisəsi hesab edilə bilən hadisənin baş verməsi səbəbini və şəraitini göstərən rəsmi sənədlərin və aktların əslinin və ya surətlərinin təqdim edilməsini tələb etmək;

20.2.5. sığorta olunan şəxsi müayinədən keçirmək üçün öz mütəxəssislərini göndərmək;

20.2.6. sığorta qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**Maddə 21. Sığortalının hüquqları və vəzifələri**

21.1. Sığortalı aşağıdakıları öhdəsinə götürür:

21.1.1. sığorta müqaviləsi bağlanan zaman özünə məlum olan və sığorta riskinin qiymətləndirilməsinə mühüm əhəmiyyətə malik bütün hallar (əhəmiyyətli hallar) barədə sığortaçını məlumatlandırmaq;

21.1.2. sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində:

a) sığorta müqaviləsi bağlanan zaman sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin, sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən və ona məlum olan bütün digər hallar barədə dərhal sığortaçıya məlumat vermək;

b) sığorta hadisəsinin baş vermə ehtimalının və mümkün itkilərin azal(dıl)masına yönəldilmiş ağlabatan və zəruri tədbirləri görmək;

c) fəaliyyəti ilə tanış olması üçün sığortaçıya müvafiq şəraiti yaratmaq;

d) gündəlik həyatda ictimai təhlükəsizlik qaydalarına və normalarına əməl etmək;

21.1.3. sığorta hadisəsi baş verdikdə:

a) sığorta hadisəsinin səbəb olduğu zərərin həcminin azaldılması məqsədi ilə özündən asılı olan bütün ağlabatan və zəruri tədbirləri görmək, o cümlədən səhiyyə müəssisəsinə dərhal tibbi yardım üçün müraciət etmək, tibb müəssisəsinin və müalicə edən həkimin bütün göstərişlərinə əməl etmək;

b) hadisə barədə səlahiyyətli dövlət orqanlarına məlumat vermək və qanunvericiliklə ona aid edilmiş bütün öhdəlikləri yerinə yetirmək;

c) bu barədə xəbər tutduqdan dərhal sonra sığorta hadisəsinin baş verdiyi şərait ilə bağlı digər zəruri məlumatları sığortaçıya bildirmək;

d) sığortaçının bütün göstərişlərinə əməl etmək;

e) sığorta hadisəsi ilə bağlı sığortaçının tələb etdiyi bütün zəruri sənədləri ona təqdim etmək.

f) sığortaçının nümayəndələrinə hadisənin baş verdiyi yerə sərbəst və maneəsiz baxış keçirmək, sığorta hadisəsinin baş vermə səbəblərinin, onun səbəb olduğu zərərin həcminin və digər təfsilatların müəyyənləşdirilməsi üçün imkan vermək və müvafiq şəraiti yaratmaq;

21.1.4. sığorta qanunvericiliyi və sığorta müqaviləsi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

21.2. Sığortalı aşağıdakı hüquqlara malikdir:

21.2.1. sığorta müqaviləsi bağlanan zaman:

- sığorta müqaviləsi bağlanarkən sığortalı sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq;
- sığorta müqaviləsinin şərtləri ilə tanış olmaq;

21.2.2. sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində:

- sığorta müqaviləsi itirildikdə, onun dublikatını almaq;
- Azərbaycan Respublikasının Mülki Məcəlləsi və bu Qaydalarla nəzərdə tutulmuş qaydada sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermək;

21.2.3. sığorta müqaviləsinin şərtlərinə uyğun olaraq sığorta ödənişinin verilməsini tələb etmək;

21.2.4. sığorta müqaviləsi üzrə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsini sığortaçıdan tələb etmək;

21.2.5. sığorta qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

## BÖLMƏ 7. SIĞORTA ÖDƏNİŞİ

**Maddə 22. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər**

22.1. Sığorta ödənişinin verilməsi üçün sığortaçı tərəfindən tələb olunan sənədlər aşağıdakılardır:

22.1.1. sığorta şəhadətnaməsinin əsli;

22.1.2. sığorta hadisəsi ilə əlaqədar müvafiq səlahiyyətli orqanlardan sığortaçının sorğusu əsasında alınan sənədlər;

22.1.3. sığorta olunan şəxs vəfat etdikdə ölüm haqqında şəhadətnamənin surəti, tibbi ekspertizanın rəyinin surəti (mövcud olduğu halda);

22.1.4. sığorta olunan şəxs ümumi əmək qabiliyyətini itirdikdə əmək qabiliyyətinin itirilməsi ilə əlaqədar tibbi-sosial ekspert komissiyasının rəyi (arayışı) və ya əmək qabiliyyətinin itirilməsi vərəqəsi, habelə həmin şəxsin stasionar, ambulator kartasından çıxarış;

22.1.5. zəruri hallarda sığortaçı sığortalıdan başqa sənədləri də tələb edə bilər.

22.2. Sığorta hadisəsi faktının mövcudluğunu və onun səbəb olduğu ziyanın həcmini sübut etmək Sığortalının vəzifəsidir. Sığorta hadisəsi faktının və şəraitinin sübut edilməsi üçün Sığortalı, sığorta olunan və ya faydalanan şəxs fərdi qəzanın baş verməsi faktını, həmçinin ölüm və ya səhhətə dəyən ziyan ilə bağlı bütün sənədləri Sığortaçıya təqdim etməyə borcludur.

**Maddə 23. Sığorta ödənişinin hesablanması, verilməsi qaydası və sığorta ödənişinin ödənilməsindən imtina.**

23.1. Sığortaçı, sığorta müqaviləsi ilə təminat verilmiş hadisələr baş verdikdə, sığorta ödənişini sığortalının ərizəsinə (sığorta tələbinə), hadisə ilə əlaqədar və bu Qaydaların 22-ci maddəsinin tələblərinə müvafiq olaraq sığortaçının tələb etdiyi sənədlərə və sığorta müqaviləsinin şərtlərinə uyğun olaraq sığortaçının tərtib etdiyi sığorta aktına əsasən ödəyir.

23.2. Sığorta ödənişinin miqdarı fərdi qəza nəticəsində alınan xəsarətin ağırlığından asılı olmaqla, sığorta məbləğindən aşağıdakı faizlərlə hesablanır:

23.2.1. **Ölüm halında** – 100 %;

23.2.2. **Tam əlillik ödənişi**

Əlillik nisbəti "Əmək Qabiliyyətinin İtirilməsi Klozu"na görə 60%-dan artıq olan hallarda tam əlillik halı hesab edilir. Sığortalının fərdi qəza nəticəsində tam əlilliyi halında, sığorta şəhadətnamədə göstərilən ölüm və əmək qabiliyyətinin tam itirilməsi təminatı məbləğini sığorta ödənişi olaraq sığortalıya ödənilir və sığortaçı müqavilə üzrə öz öhdəliklərini tam yerinə yetirmiş hesab edilir.

23.2.3. **Qismən əlillik ödənişi**

Sığortalının sığorta müddəti ərzində fərdi qəza hadisəsi nəticəsində qismən əlil qalması halında sığorta ödənişi "Əmək Qabiliyyətinin İtirilməsi Klozu"-na görə müəyyən edilir.

## “ƏMƏK QABİLİYYƏTİNİN İTİRİLMƏSİ KLOZU”

| Əlillik | Sığorta məbləğindən %-lə |
|---|---|
| Hər iki gözdə görmə qabiliyyətinin tam itirilməsi | 100 |
| Tam müalicəolunmaz psixoz | 100 |
| Hər iki qolun və ya hər iki əlin itirilməsi | 100 |
| Hər iki qulağın travma mənşəyi ilə tam karlığı | 100 |
| Aşağı çənənin çıxardılması | 100 |
| Nitqin tam itirilməsi | 100 |
| Bir qolun və bir ayağın tam itirilməsi | 100 |
| Bir qolun və bir ayaq pəncəsinin tam itirilməsi | 100 |
| Bir əlin və bir ayaq pəncəsinin tam itirilməsi | 100 |
| Bir əlin və bir ayağın tam itirilməsi | 100 |
| Hər iki ayağın tam itirilməsi | 100 |
| **BAŞ** | |
| Kəllə sümüyünün bütün qalınlığı boyu zədələnməsi | |
| - ən azı 6 $sm^2$ olan səth | 60 |
| - 3 $sm^2$ –dən 6 $sm^2$ – dək olan səth | 30 |
| - 3 $sm^2$ –dən az olan səth | 20 |
| Aşağı çənənin qismən, qalxan hissəsinin bütünlükdə və ya yuxarı çənə sümüyünün yarısının çıxardılması | 40 |
| Bir gözün tam itirilməsi | 40 |
| Bir qulağın tam karlığı | 30 |

**YUXARI ƏTRAFLAR**

| Əlillik | SAĞ | SOL |
|---|---|---|
| Bir qolun və ya bir əlin itirilməsi | 60 | 50 |
| Qol sümük maddəsinin əsaslı zədələnməsi (müəyyənləşdirilmiş və müalicəolunmaz zədələnmə) | 50 | 40 |
| Yuxarı ətrafların tam iflici (sinirlərin müalicəolunmaz zədələnməsi ) | 65 | 55 |
| Dolanan sinirin tam iflici | 20 | 15 |
| Bazunun ankilozu | 40 | 30 |
| Əlverişli vəziyyətdə fiksə edilərək dirsəyin ankilozu (düz bucaqdan 15 dərəcə aralı) | 25 | 20 |
| Əlverişsiz vəziyyətdə fiksə edilərək dirsəyin ankilozu | 40 | 35 |
| Iki bazu önü sümük maddəsinin əsaslı itirilməsi (müəyyənləşdirilmiş və müalicəolunmaz zədələnmə) | 40 | 30 |
| Orta sinirin tam iflici | 45 | 35 |
| Bağlama yerində mil sinirinin tam iflici | 40 | 35 |
| Bazu önünün mil sinirinin tam iflici | 30 | 25 |
| Əlin mil sinirinin tam iflici | 20 | 15 |
| Dirsək sinirinin tam iflici | 30 | 25 |
| Biləyin əlverişli vəziyyətdə fiksə edilərək ankilozu (düz və əlin üstü vəziyyətdə) | 20 | 15 |
| Biləyin əlverişsiz vəziyyətdə fiksə edilərək ankilozu (bükmə və deformasiyalı açma və ya çevrilmiş vəziyyətdə) | 30 | 25 |
| Baş barmağın tam itirilməsi | 20 | 15 |
| Baş barmağın qismən itirilməsi (dırnaq falanqası ) | 10 | 5 |
| Baş barmağın tam ankilozu | 20 | 15 |
| Şəhadət barmağının tam amputasiyası | 15 | 10 |
| Şəhadət barmağının iki barmaq sümüyünün tam itirilməsi | 10 | 8 |
| Şəhadət barmağının dırnaq falanqasının tam itirilməsi | 5 | 3 |
| Baş barmağın və şəhadət barmağının eyni zamanda amputasiyası | 35 | 25 |
| Şəhadət barmağından savayı baş barmağın və digər barmağın tam itirilməsi | 25 | 20 |
| Baş və şəhadət barmağından savayı iki barmağın tam itirilməsi | 12 | 8 |
| Baş və şəhadət barmağından savayı üç barmağın tam itirilməsi | 20 | 15 |
| Baş barmaq daxil olmaqla dörd barmağın itirilməsi | 45 | 40 |
| Baş barmaqdan savayı dörd barmağın itirilməsi | 40 | 35 |
| Orta barmağın tam itirilməsi | 10 | 8 |
| Baş və şəhadət barmaqlarından savayı bir barmağın tam itirilməsi | 7 | 3 |

**AŞAĞI ƏTRAFLAR**

| Əlillik | Sığorta məbləğindən %-lə |
|---|---|
| Ombanın tam itirilməsi (yuxarı hissəsi ) | 60 |
| Ombanın (aşağı hissəsinin) və ayağın tam itirilməsi | 50 |
| Ayaq pəncəsinin tam itirilməsi (baldır –ayaqbarmağının disartikulyasiyası (parçalara bölünməsi)) | 45 |

| | |
|---|---|
| Ayaq pəncəsinin qismən itirilməsi (topuqaltı-sümüyünün disartikulyasiyası (parçalara bölünməsi)) | 40 |
| Ayaq pəncəsinin qismən itirilməsi (orta ayaq dırnağının disartikulyasiyası (parçalara bölünməsi)) | 35 |
| Ayaq pəncəsinin qismən itirilməsi (ayaq darağı – ayaq dırnağı arxasının disartikulyasiyası (parçalara bölünməsi)) | 30 |
| Aşağı ətrafların tam iflici (müalicəolunmaz sinir zədələnməsi) | 60 |
| Xarici dizaltı sinirinin tam iflici | 30 |
| Daxili dizaltı sinirinin tam iflici | 20 |
| Iki sinirin tam iflici (xarici dizaltı sinirinin və daxili dizaltı sinirinin tam iflici) | 40 |
| Ombanın yan hissəsinin ankilozu | 40 |
| Dizin ankilozu | 20 |
| Ombanın və ya hər iki ayaq sümüklərinin sümük maddəsinin itirilməsi (müalicəolunmaz hal) | 60 |
| Diz qapağının sümük maddəsinin itirilməsi və bununla bağlı fraqmentlərin əsaslı ayrılması və ayağın uzadılması (dartılması) zamanı hərəkətlərin məhdudlaşması | 40 |
| Diz qapağının sümük maddəsinin itirilməsi, hərəkətlərin saxlanılması şərti ilə | 20 |
| Aşağı ətrafların ən azı 5 sm qısaldılması | 30 |
| Aşağı ətrafların 3 sm-dən 5 sm–dək qısaldılması | 20 |
| Aşağı ətrafların 1 sm-dən 3 sm–dək qısaldılması | 10 |
| Ayaq pəncəsinin bütün barmaqlarının amputasiyası | 25 |
| Ayaq pəncəsinin baş barmağı da daxil olmaqla dörd barmağın amputasiyası | 20 |
| Ayaq pəncəsinin dörd barmağının tam itirilməsi | 10 |
| Ayaq pəncəsinin baş barmağının tam itirilməsi | 10 |
| Ayaq pəncəsinin iki barmağının tam itirilməsi | 5 |
| Ayaq pəncəsinin,baş barmaqdan savayı,bir barmağın amputasiyası | 3 |

Sığortalı solaxay olduğu halda, yuxarıdakı cədvəldə sağ və sol əl üçün müəyyən edilən nisbətlər əksinə tətbiq edilir.

Sığorta ödənişinin verilməsi zamanı sığorta olunanın peşəsi nəzərə alınaraq sığorta ödənişinin miqdarı Sığortaçı tərəfindən artırıla bilər.

23.2.4. **Fərdi Qəza hadisəsi nəticəsində Sınıqlar**

Əgər Sığorta olunan sığorta müqaviləsi qüvvədə olduğu müddət ərzində təminata daxil olan bədbəxt hadisəyə məruz qalarsa, habelə həmin hadisədən aldığı xəsarətdən və həmin xəsarətlər sınıq(lar) ilə nəticələnirsə, müqavilədə şərtlənmiş sığorta məbləği Sınıqlar üzrə ödəniş aşağıdakı cədvəldə göstərilən nisbətlərə uyğun olaraq faydalanan şəxsə ödənilir (sığorta müqaviləsində şərtsiz azadolma və ya gözləmə müddəti nəzərdə tutulduğu halda, müvafiq olaraq şərtsiz azadolma və ya gözləmə müddəti ərzində çəkilən xərcləri aşan hissəsində).

| SINIQ | Sığorta məbləğindən %-lə |
|---|---|
| Omba və ya çanaq sümüyünün sınığı (bud sümüyü və büzdümdən savayı ):<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>d) Bütün digər sınıqlar | <br>100<br>50<br>30<br>20 |
| Omba və dabanın sınığı:<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>d) Bütün digər sınıqlar | <br>50<br>40<br>30<br>20 |

| | |
|---|---|
| Baldır, körpücük sümüyü, topuq, dirsək oynağı, bazu və ya bazu önü sümüyünün sınığı (bilək daxil olmaqla, lakin mil sümüyünün klassik sınığı istisna olmaqla):<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>d) Bütün digər sınıqlar | <br><br><br>40<br>30<br>20<br>12 |
| Aşağı çənənin sınığı:<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>d) Bütün digər sınıqlar | <br>30<br>20<br>16<br>8 |
| Kürək, diz qapağı, döş sümüyü, əlin (barmaqlar və biləkdən savayı),ayaq pəncəsinin (barmaqlar və dabandan savayı) sınığı:<br>a) Bütün digər ağır sınıqlar<br>b) Bütün digər sınıqlar | <br><br>20<br>10 |
| Bazu önü mil sümüyünün klassik sınığı:<br>a) Ağır sınıqlar<br>b) Bütün digər sınıqlar | <br>20<br>10 |
| Onurğa sütunun sınıqları (büzdümdən savayı bütün fəqərələr):<br>a) Bütün kompresyon sınıqlar<br>b) Bütün tinəbənzər, köndələn çıxıntılar və ya çanaq sümüyünün sınığı<br>c) Onurğa sütunun bütün digər sınıqları | <br>20<br>20<br><br>10 |
| Bir və ya bir neçə qabırğanın, almacıq sümüyünün, büzdümün, yuxarı çənənin, burunun, bir və ya bir neçə ayaq barmaqlarının, bir və ya bir neçə əl barmaqlarının sınığı:<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>d) Bütün digər sınıqlar | <br><br><br>16<br>12<br>8<br>4 |

23.2.5. Fərdi qəza nəticəsində yaranan və "Əmək Qabiliyyətinin İtirilməsi Klozu" ilə müəyyən edilməmiş daimi əmək qabiliyyətinin itirilməsi halları üzrə ödənişlər aşağıdakı qaydada həyata keçirilir:

I qrup (birinci dərəcə əlillik) — sığorta məbləğinin 80 %;

II qrup (ikinci dərəcə əlillik) — sığorta məbləğinin 60 %;

III qrup (üçüncü dərəcə əlillik)— sığorta məbləğinin 40%

23.2.6. Yalnız sığorta şəhadətnaməsində əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə bağlı təminat verildikdə, ümumi əmək qabiliyyətinin müvəqqəti itirilməsi zamanı - əmək qabiliyyətinin itirilməsinin 14-cü günündən başlayaraq sığorta məbləğinin 75 %-ni aşmamaq şərtilə əmək qabiliyyətinin itirilməsinin hər gününə görə sığorta məbləğinin 0.27 %-i miqdarında;

23.3. Sığorta ödənişi verildiyi anda sığorta haqqı tam ödənilməmişdirsə, sığortaçı sığortaçı sığorta ödənişindən gecikdirilmiş və ya vaxtı çatmış sığorta haqqını tutmaq hüququna malikdir.

23.4 Bu Qaydaların 22.1-ci maddəsində nəzərdə tutulan sənədlərdən sonuncusunun sığortaçıya daxil olduğu tarixdən 7 iş günündən gec olmayaraq sığortaçı sığorta ödənişini verməli, yaxud sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etməlidir.

23.5. Sığortaçı sığorta ödənişinin ödənilməsindən aşağıdakı hallarda imtina edə bilər:

23.5.1. Sığortalının sığorta hadisəsinin baş verməsi haqqında qanunvericikdə və bu Qaydalarda müəyyən edilmiş müddətdə və qaydada məlumat verməməsi sığortaçını hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyən etmək imkanından məhrum etdikdə;

23.5.2. Sığortalı riskin dəyişməsi və ya sığorta hadisəsi nəticəsində dəymiş zərər haqqında biləbərəkdən təhrif olunmuş və ya yanlış məlumatı Sığortaçıya təqdim edibsə;

23.5.3. sığortalı sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün zəruri və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görmədikdə; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin məbləği həmin həcmdə azalmış olardı;

23.5.4. Sığortalı hadisə barədə müvafiq səlahiyyətli orqanlara məlumat vermədikdə, lakin sığorta hadisəsi nəticəsində dəymiş zərərin səbəbinin və xarakterinin müəyyən edilməsi bunu tələb etdikdə;

23.5.5. Sığortalı hazırkı Qaydaların 22.1.-ci bəndində göstərilən sənədləri təqdim etmədikdə.

**Maddə 24. Fərdi Qəza nəticələrinin təzahür müddəti**

24.1. Fərdi qəzanın baş verdiyi andan 12 (on iki) ay müddətində həmin hadisə səbəbindən ölüm baş verərsə, fərdi qəza nəticəsində ölüm hesab olunur.

**Maddə 25. Ətraflardan və ya orqanlardan istifadə imkanlarının itirilməsi**

25.1. Yuxarıda ayrıca göstərilməyən ətraf və ya orqandan istifadə imkanlarının qismən və ya tam itirilməsi ətrafın və ya orqanın qismən və ya tam itirilməsi hesab olunacaqdır.

**Maddə 26. Bir neçə xəsarət üzrə ödəniş**

26.1. Bir bədbəxt hadisə nəticəsində eyni vaxtda bir neçə bədən xəsarəti alınarsa, sığorta ödənişinin həcmi hər xəsarət üçün nəzərdə tutulmuş sığorta ödənişi hissələrinin cəmləşdirilməsi yolu ilə müəyyən olunur.

26.2. Bir və ya bir neçə bədbəxt hadisə nəticəsində bədənin bir neçə ayrı hissəsinin (bilək, əl, pəncə, ayaq) aldığı xəsarətə münasibətdə ödənişin ümumi məbləği bədənin bütün hissələrindən istifadə imkanlarının itirilməsi və ya fiziki olaraq itirilməsi zamanı verilən sığorta ödənişi məbləğini aşa bilməz.

**Maddə 27. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödəniş**

27.1. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödəniş yalnız həmin sığorta hadisəsi üzrə əmək qabiliyyətinin müvəqqəti itirilməsinin tam vaxtı müəyyən olunduqdan sonra həyata keçirilir.

## BÖLMƏ 8. DİGƏR MÜDDƏALAR

**Maddə 28. Mübahisələrin həlli qaydası**

28.1. Sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə pretenziya qaydasında, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr vasitəsilə həll edilir.

**Maddə 29. Digər şərtlər**

29.1. Sığorta müqaviləsi imzalanarkən sığortalının fəaliyyətinin xüsusiyyətləri nəzərə alınaraq, sığortalı və sığortaçı bu Qaydaların müəyyən müddəalarının dəyişdirilməsini və ya istisna edilməsi, həmçinin ona müəyyən əlavələr edilməsi barədə razılığa gələ bilərlər.